# QENDER VƏ QLOBAL PROBLEMLƏR

Bu bölmədə əvvəlki bölmədə öyrənilən bəzi analitik sistemlər qlobal xüsusiyyətilə seçilən problemlərə qarşı tətbiq olunur. Qender təhlilinin necə istifadə olunduğunu göstərmək üçün qlobal problemlərin dörd bloku seçilmişdir.

**Qender və münaqişə:** silahlı münaqişələr bütün ölkə və regionlarda qadınlar və kişilərin həyatına dağıdıcı təsir göstərirlər. Qadınlara və kişilərə qarşı münaqişənin təsirini aydınlaşdıra bilən qender təhlilinin üsullarından istifadə edərək bu bölmədə verildiyindən də çox şey etmək olar.

**Münaqişə şəraitində qadın ehtiyaclarının təyini**

1. Ailə və icmalarının sağ qalmasında qadın rolu çox vacibdir. Qadınlara kömək etmək cəhdləri, adi şəraitdə, onların özləri üçün çox vacib ola bilər, lakin münaqişə şəraitləri vəziyyətində önlar həlledici rol oynayırlar.
2. Qadınların sağ qalmaq və başqalarına yardım etmək qabiliyyəti fərdi psixologiya, qadınları müdafiə, iqtisadi ehtiyatlar və fəaliyyət, icma yardımı, milli və beynəlxalq qayğı, insan hüquqları və nümayəndəliklər məsələlərinə diqqət yetirərək bütövlükdə nəzərdən keçirilməlidir.
3. Qadınların öz iqtisadi inkişafını genişlədirmək qabiliyyəti yalnız istehsal vəsaitlərinə müdaxilə səlahiyyətindən deyil, hətta cəmiyyətdə onların ehtiyaclarından, cəmiyyətin bərbərhüquqlu və fəal nümayəndələri kimi ödənilə bilən vəziyyətdən də asılı deyil.
4. Münaqişə nəticəsində qadınlar tərəfindən çəkilən müxtəlif növ və müxtəlif dərəcəli əzablarla yanaşı qadınların sağlamlığı ilə bağlı məsələlər, xidmətlər sahəsinin və yardım sisteminin dağılma kontekstində baxılmalıdır. Qadınların sağlamlığının munaqişə şəraitində qorunması, fizioloci və sosial bəraət fərdi bədən bütövlüyü, bədən xəsarətləri, əlillik və həmçinin, fiziki və reproduktiv sağlamlıq ilə bağlı məsələləri əhatə edir.
5. Münaqişələr qadınlara qarşı zorakılığın səviyyəsini faciəli surətdə artırır. Fərdi zorakılıq qadınların və cəmiyyətin əmin-amanlığı üçün əsas təhlükədir. Qadınlara qarşı zorakılığa müxtəlif – yerli, milli, beynəlxalq səviyyələrdə diqqət yetirilməlidir və həmçinin onu törədən faktlar üzrə əlavə tədqiqatlar aparılmalıdır.
6. Sarsıntı geniş vüsət almamış münaqişənin qadınlar, kişilər və uşaqlar üçün nəticəsidir. O tədqiq edilməlidir və insanlara həm fərdi həm də ictimai səviyyədə kömək etmək üçün ölçü götürülməlidir. Qadınlar və kişilər fizioloji stresə müxtəlif cür reaksiya verirlər. Yardım göstərən sosial sistemdə olan qadın ehtiyacları tənhalığın və dostlarla və ailə ilə səmimi söhbətlərin imkan çatışmamazlığı ucbatından dağılırlar. Sarsıntının aradan qaldırılmasında kişilərin ehtiyaclarının ödənilməsi daha bərabərhüquqlu əlaqələrə gətirib çıxara bilərsə qadınlara faydalı ola bilər.
7. Qadının bir şəxs kimi bənzəri olmamağının əsas məqamı ailədir. Məhz ailə səviyyəsində münaqişə qadına daha çox dərt gətirə bilər və eyni zamanda ailə daha çox təsəlli verər və təhlükəsizldiyi təmin edə bilər. Demoqrafik qeyri-tarazlaşma – qadınlar kişilərdən çoxdur, qadınlar tərəfindən başçılıq edilən ailə təsərrüfatları çoxdur – qadınların ərə getmək perspektivlərini məhdudlaşdırır.
8. Qadınların «görünməməsi» və onların bəzi problemlərinin fərdi xüsusiyyəti o deməkdir ki, səthi üsulların dəyərləndirilməsi vasitəsi ilə onların ehtiyaclarını təyin etmək mümkün deyil.

9. Mənfi nəticələrlə yanaşı münaqişənin müsbət nəticələrini də üzə çıxarmaq vacibdir. Qadınlar bunu həmişə müdafiə cəhdləri, vasitəçilik, sülhün möhkəmlənməsi və özlərinin yenidən yaranan təşkilatları vasitəsi ilə edirlər. Münaqişə zamanı qadınlar üçün yeni rollar və yeni imkanlar yarana bilər. Kişilər də müxtəlif yollarla dəyişilməlidirlər.

**Münaqişə kontekstində qadın problemləri**

**1. Qadınlar tərəfindən başçılıq edilən ailə təsərrüfatı:**

- Müvəqqəti, məcburi köçmə kontekstində ərlə birlikdə daimi yaşayış yerlərinə köçməzdən əvvəl;
- Münaqişə ərazisində qalmağa qərar verə biləcək və ya silahlı qüvvələrə daxil ola biləcək qadınların daimi, ərin ölümü və ya uzaq yerlərə ərsiz köçmə kontekstində.

**Spesifik problemlər**

1. Artırılmış yük; qadının uşaq və qocalara baxması üçün, tək qalması üzündən.
2. Cəmiyyətdə yaşayış və məhdudlaşmanın artması: cins xüsusiyyətləri üzrə əmək bölgüsü, ehtiyatların bölüşdürülməsini, hüquqların və imkanların həcmini təyin edən problemləri.
3. Psixoloci stres / müharibənin psixoloci nəticələri; qadınlar, özlərinin ağır stress keçirmələrinə, zərər çəkmələrinə və münaqişə nəticəsində qəlbi sınıq olmalarına baxmayaraq, yaralı ailə üzvlərinin ehtiyaclarını ödəməyə məcburdurlar.

**2. Vətəndaşlardan olan, hərbi əməliyyatlar / ümumi taktika və müharibə strategiyası zamanı hərbçilər tərəfindən tutulan qadınlar üçün, reproduktiv funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar ağır şəraitlər**

**Qadınların spesifik problemləri:**

1. Ərzaq mallarının istehsalçısı, tədarükçüsü və hazırlayıcısı kimi: məhsulun müsadirəsi ilə bağlı artmış çətinliklər, kişilərin torpağının olmaması, surətlə hərəkət etmə qabiliyyətinin məhdudlaşması, ərzağın məhdudlaşması, iqtisadi məhdudlaşma, heyvanın və əkinin iflasa uğraması;
2. Ailənin sağlamlığına görə məsuliyyət daşıma şəklində: ailə üzvlərinin ölümünə gətirib çıxaran, bonbardıman və atəşlə bağlı artmış çətinliklər, doyunca yeməmə və epidemiya nəticəsində uşaqlar və yeniyetmələrin ölümü, institutlaşmış yardımın kəsilməsi, surətlə hərəkət etmə qabiliyyəitinin məhdudlaşması;
3. Uşaqlara baxmanı həyata keçirmə şəklində: yuxarıda adı çəkilənlərlə əlaqədar ağılasığmaz çətinliklər, evakuasiya, bombardıman və s. zamanı uşaqlara görə məsuliyyət daşıma şəklində. Hamilə vaxtı və ya uşağı yedizdirən ana şəklində: doyunca yeməmə, fiziki və emosianal stres;
4. Qadın sağlamlığı: çox vaxt nəinki uşaqların və anaların, bütövlükdə qadınların sağlamlığı silahlı münaqişələr zamanı və evakuasiya mərkəzlərində humanitar yardımın obyekdidir.

**Sağlamlığın spesifik problemləri:**

1. Qadınlar arasında doyunca yeməmə;
2. Ana sağlamlığı;
3. Müharibənin nəticələri (ölüm, evsiz qalma, zorakılıq) olan psixoloci/emosional stress və qeyri-sabitlik;

4. Qadınlar tərəfindən reproduktiv rolların yerinə yetirilməsini çətinləşdirən, müharibə nəticəsində yaranan əlillik/fiziki xəstəlik;
5. Cinsiyyət yolu ilə keçən xəstəliklər və ya infeksiyalar: zorlama nəticəsində, yetəri olmayan sanitar qiqiena şəraitində, çox vaxt qadınlar tərəfindən fikir verilməyən, lakin vaxtında ölçü götürülməyən halda reproduktiv xarakterli ciddi xəstəliklərə gətirib çıxara bilərlər, məsələn, xərçəng xəstəliyinə.

**Qender və ətraf mühit:** sabit inkişafın tədqiqağlar konteksti çərçivəsində, ekoloci problemlər inkişaf proqramlarında mərkəzi yerlərdən birini tuturlar.
Mövcud olan qenderin qeyri-bərabərliyi əsasında sabitliyi təmin etmək mümkun deyil, öna görə ki, belə etmək bir daha qadın maraqlarını ümumi, hətta qloğal maraqlara qurban vermək deməkdir

**Qender və təbii ehtiyatların idarə edilməsi.**

Bəşəriyyətin, təbii ehtiyatların necə idarə etmək məsələsi – torpaq, hava, flora və fauna – misilsiz məna əldə edib. Təbii ehtiyatları idarəetmənin məqsədi – məhsuldarlıq və effektlik, bölüşdürmə və bərabərlik, qoruma və ekoloci keyfiyyət – çox vaxt, cavab əvəzinə bir çox sual yaradır.
Ekoloci problemlərə olan maraq, qadınlara aidiyyatı olan rollara hər zaman daxil olur. Lakin 60-70-ci illərdə, kənd təsərrüfatında, qadınların rolu haqda ilk dəfə nəticə çıxarıldığı vaxtdan, kənd əmək haqqı sektoruna, qadınların müdaxiləsini və iştirakının nəzərə alınmasının, onların mülkiyyətinin və ailə təsərrüfatının vacibliyi, daha da çox məna kəsb edir. Kənd təsərrüfatında qadının «nəzərə çarpmaması» haqda steriotip sonsuz yeniləşən ehtiyatlarla torpaq haqda əfsanə kimi yavaş-yavaş təsirə məruz qalır.
Meşələrin məhv edilməsi, ekoloci pisləşmə əlaməti kimi, acınacaqlı bir halda məlum oldu. Ən aydın misallardan biri, sosial, iqtisadi və ekoloci dəyərləri nəzərə alaraq məişət ehtiyacları üçün qadınlara, kişilərə və uşaqlara odunun çatışmaması oldu. Qadınların öz funksiyalarını yerinə yetirmək üçün sərf etdikləri vaxtın öyrənilməsi, xörəyin bişirilməsi üçün lazımi quru yanacaq materiallarının yığılmasına sərf olunan vaxtı və günləri tədqiq edərkən qorxulu bir aydınlıq üzə çıxdı.
Ailə təsərrüfatında olan başqa məhsuldar fəaliyyət növləri, təbii ehtiyaitların azaldılması faktorunun təsrinə eyni dərəcədə məruz qaldı. Ev heyvanları üçün yemin becərilməsinə imkan yaradan torpağın məhsuldarlığı, əsasən də quraqlıq olan rayonlarda xeyli azalıb. Bir çox rayonlarda əsas problemlərdən biri ailə təsərrüfatı üçün lazım olan suyun istifadəsinə nəzarət və onu tənzimləmə səlahiyyətidir. Meyvə, lif, dərman preparatları və başqa ərzaqlar verilən meşə sahəsinin azalması, nəinki ailə təsərrüfatı ehtiyaclarının təminatına, hətta kiçik kənd müəssisəsinə də ciddi təsir etdi.
Göründüyü kimi, ən zəif cəmiyyət sektorları təbii ehtiyatların müdaxilə səlahiyyətinin itkisini, özlərində sınaqdan keçirmişlər: bu, ilk növbədə qadınlardır, onların ailə təsərrüfatının təminatı üzrə öndə olan vəzifəsi və məhsuldar vəzifələrinin geniş dairəçisi ilə; ərzaq və satış mallarının təminatı üçün meşədə yaşayan və meşə mühitindən asılı olan insanlar; əmək haqqından və yaşayış vəsaitləri üçün ictimai mülkiyyətdən asılı olan insanlar. Lakin, təbii ki, təbii ehtiyatlarını qeyri-düzgün idarəetmə məsuliyyəti hakimiyyət başında duranlara da aiddir.
Bizim diqqətimiz ictimai meşəçilik və təbii ehtiyatların idarə edilməsi sahəsindən olan ilkin misalları əhatə edən qender və ətraf mühit məsələlərinə yönəlmişdir. Bizim qarşısında yalnız qadınlar təbii ehtiyatların idarə edilməsi üzrə yeni və konstruktiv addımlar ata bilərlər məqsədi durmur. Lakin təbii ehtiyatların idarəedilməsi üzrə vəzifələrin bölüşdürülməsində qadınların fəaliyyətdə birləşməsinin praqmatik cəhdləri yaxın vaxtlardan yaranmışdır. Onlar qender fərqlərinin və uyumsuzluqların inkişaf etmiş şüurun sosial və texniki qavramaların yeni toplusunu nəzərdə tutur və belə bir qərar

qəbul olunmuşdur ki, bütün dünyada yayılmış yalnız kişilərin ailə təsərrüfatından kənar ehtiyatları idarə etməsi fikrinə yenidən baxılmasını təklif edirlər.
İnkişaf proqramında təbii ehtiyatların idarəedilməsi ilə bağlı komponentlər son iyirmi ildə yanacağın, heyvanlar üçün yemin və suyun regional qıtlığı, torpağın pisləşməsi və meşə qatının azalması ilə bağlı çox genişlənmişdir. Çox vaxt qadınlar təbii ehtiyatların inkişaf proqramının birbaşa iştirakçısı və istehlakçısı kimi qəbul olunur və bu da, qadınların bu sahədə istehlakçı kimi qəbul olunmasının şübhəsiz müvəffəqiyyətidir.
Qadınların iştirakına və təbii ehtiyatların istifadəsinə, bir çox maneələr üzə çıxmışdır. Bunlar aşağıdakılardır:

- texniki təhsil və təlimə, kreditlərə müdaxilə səlahiyyətinin çatışmamazlığı, məlumatın genişlənməsi, maddi qoyuluş, bazarlar və fondlar;
- planlaşdırma və qərar qəbul etmə prosesinə qoyuluşun çatışmamazlığı;
- torpaq, ağaclar, su və başqa təbii ehtiyatlara sahiblik və mülkiyyət hüququnun çatışmamazlığı;
- təbii ehtiyatlar hesabına təklif olunan mallar və xidmətlərin bölüşdüdürülməsinin qeyri bərabərliyi;
- istifadə üçün ehtiyatların növləri və bölüşdürülməsinə dair qadınların və kişilərin inkişaf üzrə agentliklər və iştirakçıların fikir ayrılılığı.

**İnstitutlaşmış məsuliyyət**

Ailə təsərrüfatının tədqiqatı və qender təhlili, qadınlar üçün beynəlxalq proqramlar, siyasətçi qadınlar və peşəkar mütəxəssislərin artmış təsiri tərəfindən uyğunlaşdırılan insanlar üzrə hökumət və təşkilatlar ən azı, kənd inkişafı prosesində qadınların rolunu qəbul edən sözləri mənimsədi. Nəticələrdən biri bir çox təşkilatlarda «Qadınlar inkişafda» bölməsinin yaradılması idi. Onların ilk rolu, qadınların həyatının aşağıdakı fəaliyyət növləri vasitəsilə yaxşılaşmasında idi, məsələn, gəlir əldə etmə, savadlılıq və təhsil layihələri, kredit və kooperativ yolları üzrə yardım göstərmə. Xüsusi qadın layihələrinin işlənib hazırlanmasına əlavə olaraq, inkişaf üzrə bəzi təşkilatların «Qadınlar inkişafda» bölməsi öz həmkarları tərəfindən «qəbul» olundu. Bəzi təşkilatlar da isə, təlimatlara, qender və ya qadın komponentinin hər hansı bir layihəyə salınmasını tələb edən qayda daxil edilmişdir.
Hökumətin daha geniş səviyyəsində milli donor agentlikləri, Qeyri Hökumət Təşkilatları və Özəl Könüllü Təşkilatlar, təbii ehtiyatlarla idarəetmə üzrə proqram və layihələr işləyib hazırlamışlar. Onlardan çoxu meşələrin qorunmasına və ictimai meşəçiliyə, torpağın bərpasına və zənginləşməsinə, suyun çatdırılmasına və bölüşdürülməsinə və həmçinin suayırıcının idarə edilməsinə yönəlmişdir. Uzunmüddətli inkişafın məqsədi, məhsuldarlığın artması olduğuna baxmayaraq, ehtiyatların bölüşdürülməsi və idarəedilməsində bərabərlik əhəmiyyət əldə etmişdir.
Təcrübə göstərir ki, hər hansı bir inkişaf layihəsində, heç bir sektor (bölmə) başqalarından müvəffəqiyyətlə təcrid edilə bilməz. Diqqət yalnız fermer tarlasına yönələ bilməz, çünki həm qoyulmalar, həm də nəticələr iqtisadi, sosial və ekoloci məzmuna malikdir. İnkişaf etmiş sübutlar var ki, təbii ehtiyatlarla idarəetmə, ekosistem kontekstində həyata keçir, hansı ki, nəticələri adi layihə dövrəsində dəyərləndirmək və ya hətta nəzərdən keçirmək mümkün olmur. Bu baxımdan, qadınların statusunun möhkəmlənməsi üçün nəzərdə tutulan təsir insanların ekoloci mühitində – onların ailə təsərrüfatında, icmalarda və ətraf mühiti ilə olan münasibətlərdə həyata keçir.

**«Qadınlar inkişafda» və qender yanaşmaları arasında olan yaradıcı gərginlik**

Qadınların, kənd inkişafında məsələlərinin müzakirəsi çərçivəsində onlara diqqətin yönəlməsi vacibliyi və onların yaşadıqları sistemə birləşmələrinin qəbul edilməsinə nail olmaq üçün birmənalı vaciblik arasında yaradıcı gərginlik istər-istəməz üzə çıxır. Bizim özümüz, qadınldara necə baxmağı öyrəndiyimiz kimi – qadınlar – nəticələrdən istifadə edənlər, qadınlar – iştirakçılar, qadın – azad deyil, qadın – zərər çəkən tərəf, qadın – qalib gələn – biz, başqalarını da, müxtəlif vəziyyətdə və yaşda olan və müxtəlif baxımdan qadın və kişilərə baxmağı öyrətməliyik.
Biz bu gərginliklə, həm nəzəri səviyyədə, həm də praktiki layihələrin həyata keçməsində üzləşirik. Qadın proqramlarının tam maliyyələşməsi və qender təhlilininin həyata keçməsi imkanı bu gərginliyi artırır, lakin onunla uyğunlaşma üçün imkan yaradır. Qender və ya qadın komponenti, təbii ehtiyatların inkişaf layihəsinə qoyulan zaman, o, daha da vacib olur. Qender yanaşması, təbii ehtiyatlarla idarəetmə inkişafı layihəsinə, bütövlükdə birləşəndə onun potensialı daha da çox olur.

**Qender və iqtisadi böhran**: makroiqtisadi səviyyədə – Struktur Dəyişmələrin Siyasəti – və mikroiqtisadi səviyyədə – qadınların gündəlik işləri, iqtisadi təsirin qender prespektivlərinin baxılmasına yönəlmiş məşğələlər kompleksi.

Borclar və struktur islahatlar

Ölüm əmsalının aşağı düşdüyü, ömrünsə uzandığı onilliklər boyu davam edən əlverişli və sabit tərəqqidən sonra, 1980-cı illərdə dünya insan inkişafında faciəvi əks dəyişikliklərlə üzləşdi. Geriləmə meyllərinin başlıca səbəbi heç də inkişaf edən ölkələrin daxili siyasətindəki gözlənilməz dəyişikliklər deyil, dünya iqtisadiyyatında baş verən əlverişsiz dəyişikliklərlə bağlı onların rastlaşdığı xarici şəraitlə əlaqədar idi.

Dünyanın bir çox hissəsində 1950-1960-cı və 1970-ci illər keçid dövrü iqtisadiyyatının inkişaf etdiyi və ticarətin liberallaşdığı əlverişli və sabit tərəqqi illəri olmuşdur. Lakin 1970-ci illərin əvvəllərində neftin qiymətinin artması bir çox ölkələri qiymət artımını qarşılamaq üçün böyük borclara girməyə vadar etdi. Vaxtında özəl kreditlərə müraciət etmiş ölkələr öz iqtisadi inkişafını az-çox təmin edə bildilər. Ancaq 1970-ci illərin sonunda bir sıra əlavə iqtisadi sarsıntılar meydana çıxdı.

1978-1979-cu illərin əvvələrində neftin qiymətinin yeni artımı dünyanın əksər hissəsini iqtisadi tənəzzülə uğratdı. Bu vəziyyətdən bir çox ölkələr indiyə kimi tam xilas ola bilməyiblər. Onların iqtisadi artımı 1970-ci ilin göstəricilərinin yarısını və ya 2/3 təşkil edirdi. Bu isə öz növbəsində inkişaf mərhələsində olan ölkələrin bazarını sarsıtdı. İkinci güclü zərbə mal-əmtəə dəyərinin görünməmiş dərəcədə aşağı düşməsi oldu ki, bu da indiyədək əvvəlki səviyyəyə qayıtmamışdır. Təkcə 1988-ci ildə Afrika ölkələrinin itkisi təqribən 19 milyard dollar təşkil etmişdir. Nəhayət, üçüncü zərbə sənayecə inkişaf etmiş ölkələrin artan proteksionizmi oldu. İnkişafda olan ölkələr idxal edilən malları yüksək qiymətlə ödəməyə, ixracı isə aşağı qiymətlərlə həyata keçirməyə məcbur idilər. Alıcılıq qabildiyyətinin aşağı düşməsi o deməkdiir ki, onlar, əvvəlkinə nisbətən daha az əmtəə idxal edə bilərlər.

Bu ölkələr istədiklərini nəinki idxal edə bilmirdilər, onlar eyni zamanda 1980-ci illərdə 18-20%-ə çatmış anormal yüksək faiz tarifləri ucbatından kreditlər də ala bilmirdilər. Üstəlik 1980-ci illərdə özəl kreditvermə sadəcə olaraq yoxa çıxdı və inkişafa yardım kəsildi. Nəticədə inkişafda olan ölkələrin 1979-cu ildə 38 milyard dollarlıq dəyərində olan müsbət kapital axını 1986-cı ildə 50 milyard dollarlıq təmiz itgi ilə əvəz olundu. Bu ciddi pisləşmədir. Deməli, «borc böhranı» göz qabağındadır.

İnkişaf edən ölkələr onlara kredit vermək imkanında olan və proqramları dövlət xərclərinin, məşğulluğun, kredit və, mümkün olduqda, müavinətlərin məhdudlaşdırılmasına yönələn yeganə kreditor olan Beynəlxalq Valyuta Fonduna müraciət etmək məcburiyyətində qaldılar. Nəticədə kasıbların gəlirləri azaldı, qiymətlər kəskin şəkildə artdı, əsas xidməitlər olan səhiyyə və təhsil xidmətləri dövlət tərəfindən azaldıldı.

Statistika göstərir ki, 1980-ci illərdə real əmək haqqı Meksikada 40% azaldı, Qanada isə 1974-cü il səviyyəsinin yalnız dörddə birini təşkil etdi. İşsizlik Yamaykada 25%-i ötdü, 1980-ci illərdə Çilidə 10%-dən 16%-ə, Peruda 5%-dən 11%-ə çatdı. Latın Amerikasında əmək resursları qeyri-rəsmi sektorda 10%-ə qədər artdı, lakin burada gəlirlər də azaldı. Ərzaq məhsullarının qiymətləri əhəmiyyətli dərəcədə yüksəldi. Qanada hətta ailənin iki işləyən üzvü olduqda belə onların gəliri normal qidalanmaq üçün tələb olunan ərzağın yalnız 30%-ni almağa imkan verirdi; hökumətin təhsilə ayırdığı xərclər 1982-ci ildə real hesabla götürdükdə 1974-cü ilin yalnız 30%-ni təşkil edirdi, səhiyyə üzrə bu xərclər 23% idi. Yamaykada 1980-ci ildə sosial ehtiyaclara adambaşına 40% az vəsait ayrılmışdı.

1989-cu ildə beynəlxalq ictimaiyyət islahat proqramının sosia təsiri məsələləri ilə çox ciddi məşğul olmağa başladılar. Hökumətlərin və beynəlxalq institutların diqqəti kasıblar üçün keçirilən islahatların xərclərinin minimuma endirilməsi və inkişafa yönəldilməsi vacibliyinə cəm olunmuşdu. Bununla əlaqədar böhranın qadınlara spesifik təsirinin öyrənilməsi vacibdir.

Azərbaycanda işlərin vəziyyətini əks etdirən bəzi göstəricilər bu Vəsaitin sonunda gətirilən cədvəllərdə təqdim edilmişdir.

**Struktur islahatlarının qadınlara təsiri**

Son tədqiqatlar göstərir ki, bütün ölkələrdə stabilləşmə tədbirləri komplekslərinin əksər üsulları bu və ya digər formada qadınlara əks təsir göstərir. Məsələn, Azərbaycan kimi ərzaq məhsulları idxal edən ölkələrdə valyuta devalvasiyası dərhal ərzaq qiymətlərinin artmasında özünü göstərir. Dolların milli valyutaya – manata nisbəti məzənnəsinin azacıq da olsa dəyişməsi – ölkəyə idxal edilən əsas ərzaq məhsullarının qiymətinin artmasına səbəb olur. Qadınlar ailənin ərzaq büdcəsinə məsul olduqlarından, gəlirin hər-hansı kompensasiyası olmadan qiymət artımını ilk olaraq hiss edirlər. Bu proseslərin nəticəsi kimi ərzaq azlığı və yarıac qalma ilk növbədə ciddi şəkildə qızlara və bütün yaş həddlərində olan qadınlara təsir göstərir. Bu hal xüsusən də hamilə qadınlarda və uşaq əmizdirən analarda özünü biruzə verir. Ərzaq məhsullarının istehsalına, alınmasına və hazırlanmasına sərf olunan vaxtın artması ailə menecerləri olan qadınlara sarsıntı və sağlamlıqlarına zərər gətirir. Bu ailə üzvlərinə qayğı göstərmələrində onların effektivliyini azaldır. Ərzağa, nəqliyyata, enerjiyə və yanacağa görə verilən yardımların kəsiləsi də analoji təsir göstərir.

Məişət ehtiyaclarına, nəqliyyata, uşağa baxmağa, səhiyyəyə, təhsilə dövlət xərclərinin azaldılması, sənədli təsdiq olunduğu kimi, dərhal mənfi nəticələr verir, gələcək davamlı inkişafa müxtəlif təsirlər göstərir. Əməyi az ödənilən dövlət qulluqçularının əksəriyyətini təşkil edən və ailə üzvlərinin çoxusunun onlardan asılı olduğu qadınlar işini birinci itirənlərin və əməyi az ödənilənlərin cərgəsində olurlar. Sosial ixtisarlara qarşı aparılan bu mübarizənin əsas yükü qadınların vaxtı və fərdi resursları üzərinə düşür. Dövlət xərclərinin azaldılmasının daha bir təsir dairəsi, az da olsa, qadınlar arasında ölüm həddinin və xəstəliklərin artmasıdır. Bu azalmaların və ailə planlaşdırmasına məsrəflərin ləğvinin doğum səviyyəsinə necə təsir göstərdiyi hələ sübut olunmalıdır.

İxrac üçün əmtəə malının istehsalını, ticarətin və tariflərin birtərəfli liberallaşdırmasını həvəsləndirən dəyişikliklər özündə qadınlar üçün ciddi təhlükə

gizlədir. İxracın həvəsləndirilməsi – yerli istehlaka, ilk növbədə isə ərzaq məhsullarının istehlakına, mənzil, geyim və nəqliyyat xidmətlərinə yönəlmiş istehsal sektorundan investisiyaları yayındırır. Əksər hallarda qadınların rəhbərlik etdikləri ərzaq istehsalı ilə məşğul olan kiçik müəssisələr, kasıblıq, aclıq və milli ərzaq təhlükəsizliyinin dağılması ucbatından vaxtı ilə kifayət qədər təminatlı olan bir çox ölkələrdə artıq problemlərlə üzləşiblər. Bu növ neqativ problemlərin nəticələrini dəf etmək üçün 2000-ci ildə Azərbaycanda Milli Ərzaq Təhlükəsizliyi Proqramı qəbul edilmişdir.

Tədqiqatlar göstərir ki, iqştisadiyyat zəif olduqda ixraca yönəlmiş istehsal nadir hallarda ölkəyə yeni texnologiyalar və vərdişlər gətirə bilər, sabit məşğuliyyət və davamlı inkişaf yarada bilər. Eyni zamanda ənənəvi ərzaq bitkilərinin kənd təsərrüfatında daha çox gəlir gətirən bitkilərlə əvəz olunması ilk növbədə qadınların gəlirini azaldır. Ticarətin və tariflərin liberallaşdırılması, xüsusilə də bu ABŞ, Yaponiya yaxud Avropa ölkələri tərəfindən həyata keçirilirsə, bu hal yerli istehsalın aşağı düşməsminə, işsizliyin (xüsusən də qadınlar arasında) artmasına səbəb olur. Alıcılıq qabiliyyətinin aşağı düşməsi özünü qender fərqində daha aydın göstərir.

**Xülasə**

Struktur islahatları konsepsiyası qadınların çətinlikləri dəf etmək, getdikcə artan neqativ şəraitdə öz iqtisadi və sosial vəzifələrini icra etmək, mənsub olduqları ailə və icmaların yaşaması naminə özlərinin şəxsi tələbat və maraqlarından əl çəkmək bacarıqlarına əsaslanır. Qısası, struktur islahatları qadınların yerinə yetirdikləri elə xidmətlərə əsaslanır ki, onları əvvəl dövlət icra edirdi.

**Potensialın və zəifliyin analizi**

İnkişaf bir prosesdir ki, onun vasitəsilə zəiflik azalır, potensial isə güclənir.

Potensialın və Zəifliyin Analizi Beynəlxalq Humanitar Yardım və İnkişafın Harvard Layihəsi işlənib hazırlamışdır. Bu vasitə təsirin nəticələrini qabaqcadan görməyə, həm də fövqəladə vəziyyətdə olan insanları güclü və zəif tərəflərinin qrafikini çəkməklə qiymətləndirməyə kömək edir.

Bu ideyanın əsas qayəsi ondadır ki, mövcud güclü, yaxud potensial və cılız, yaxud zəif tərəflər böhrana necə təsir etmə üsullarını müəyyən edir. Fövqəladə vəziyyətdə təsir etmənin məqsədi ondadır ki, bunula davamlı perspektiv üçün insanların potensialı gücləndirilsin, zəifliyi isə azaldılsın. Bu, inkişaf baxımından fövqəladə vəziyyətdə yardım göstərmə yanaşmasıdır.

- **Potensial:** ayrı-ayrı şəxslərin və ya sosial qrupların hər hansı güclü tərəfləri mövcuddurmu? Bunlar gərək insanların maddi, fiziki, və sosial resursları, inam və hissləri ilə bağlı olsunlar. Onlar zamanı keçdikcə yaranır və insanların böhranın öhdəsindən gəlmək və onu dəf etmək bacarığını müəyyənləşdirir.
- **Zəiflik:** qəfildən yaranan fövqəladə vəziyyətlə insanların bacarıq qabiliyyətini zəiflədən uzunmüddətli faktordur. Onlar insanları fəlakətlərə qarşı daha həssas edirlər. Potensial kimi, onlar da analizdə maddi və fiziki, sosial və təşkilati, hissiyyət və səbəblər kimi qruplaşırlar.

Zəifliyi tələbatlardan fərqləndirmək çox vacibdir. **Tələbatlar** - yaşamaq və böhrandan çıxmaq üçün lazım olan təcili ehtiyaclardır. Onlar, bir qayda olaraq, qısamüddətli əməli yardım (məsələn, ərzaqla humanitar yardım) hesabına ödənilirlər. Zəiflik isə inkişaf fəaliyyətinin bir hissəsi olmaqla, davamlı strateji qərarlar tələb edir.

Potensial, zəiflik və tələbatlar qenderə, eləcə də irq, silk, sinif, etnik mənsubiyyət və yaş kimi digər faktorlara görə fərqlənirlər. Qadınlar və kişilər öz qender rollarına uyğun olaraq böhranı müxtəlif cür hiss edirlər. Onların tələbat və maraqları

müxtəlifdir. Qadınlar özlərinin nisbətən aşağı iqtisadi, sosial və siyasi statuslarına görə böhran zamanı da zəif olurlar. Eyni zamanda onlar yeniliyə daha açıqdırlar və fövqəladə vəziyyət nəticəsində onların qender rolu daha tez dəyişə bilər. Potensial və Zəifliyin Analizi bu sosial fərqi nəzərə almağa və cədvəllərdə əks etdirməyə kömək edir.

Hazırki təhlil potensial və zəifliyin üç kateqoriyasını ayıd edir. Onlar aşağıdakılardır:

- Potensial və Zəifliyin Analizi bu sosial fərqi nəzərə almağa və cədvəllərdə əks etdirməyə kömək edir.

Hazırki təhlil potensial və zəifliyin üç kateqoriyasını ayıd edir. Onlar aşağıdakılardır:

- **Fiziki və ya Maddi**: onlara daxildir: insanların yaşadıqları və ya əvvəl yaşamış olduqları torpağın, iqlimin və ətraf mühitin xüsusiyyətləri; onların sağlamlıq durumu, bacarıqları, məişət şəraiti, texnologiyalar, su və ərzaqla təminatı; kapitala və digər vasitələrə yol tapması və s. Bütün bu faktorlar qadınlar və kişilər üçün fərqlidirlər. Böhran dövründə həm kişilər, həm də qadınlar maddi itkilərə məruz qalsalar belə onlarda həmişə hansısa ehtiyatlar, məsələn, istifadəyə yararlı əmtəə mal və ya bacarıqlar (qabiliyyət) qalır. Bu isə elə həmin potensialdır ki, inkişaf agentlikləri onlar üzərində öz fəaliyyətlərini qura bilərlər.
- **Sosial və ya Təşkilati**: bu kateqoriya əhalinin və ya qrupun sosial strukturu ilə bağlıdır və özündə ailə yaxud qohum qrupları (məsəldən, tayfa, klanlar), sosial və ya siyasi təşkilatları, əmtəə və xidmətlərin bölgü sistemini birləşdirir. Bu kateqoriya da qender analizi xarakter daşıyır. Belə ki, qadın rolları bu müxtəlif formalı təşkilatlarda çox geniş fərqlənir. Sosial qruplarda qərar qəbulu prosesi qadınları istisna edə bilər, yaxud qadınlarda əmək və məhsul mübadiləsinin yaxşı inkişaf etmiş sistemi ola bilər. Qender, irqi, etnik yaxud sinfi mənsubiyyət əlamətlərinə görə bölünmə sosial qrupu sarsıda, bunula da onun zəifliyini artıra bilər.
- **Səbəblər və hisslər:** bu kateqoriya dinə, xalqın böhran vəziyyətli tarixinə, onun fövqəladə şəraitdə humanitar yardım gözləməsinə əsaslanan mədəni və psixoloji faktorları özündə birləşdirir. İnsanlar özlərini qurbanlıq və asılı kimi hiss etdikləri zaman onlar fatalist və ya passiv ola bilər, bunula da çətinliyə sinə gərmək və onu dəf etmək potensialını itirə bilərlər. Onların zəifliyi humanitar yardımın düzgün həyata keçirilməməsi üzündən arta bilər ki, bu da adamların imkanlarına uyğun gəlməyə, inamlarını inkişaf etdirməyə və dəyişiklik etmə imkanını təmin etməyə bilər.

Potensial və zəifliyin analizi aşağıdakılar üçün uyğun ola bilər:

- Qender, sinfi, silki, etnik mənsubiyyət, yaş həddi və s. sosial ayrılıqların bütün formalarını qeyd etmək üçün cədvəl modeli yaradıla bilər;
- Bu analizə müəyyən vaxt ardıcıllığı ilə müraciət etdikdə o, dəyişikliklərə, məsələn, fövqəladə vəziyyət nəticəsində qender münasibətləri sahəsindəki dəyişikliklərə qiymət vermək üçün istifadə oluna bilər;
- Özlüyündə o, əsas cədvəlin altı özəyi arasındakı daimi asılılığı göstərir. Zəiflik və potensial bir-biri ilə bağlıdırlar və onların birində baş verən dəyişikliklər digərinə də təsir edir. Məsələn, insanların sosial təşkilatının möhkəmləndirilməsi onların maddi itkilərindən yaranan zəifılıyini azalda bilər və qrupda qarşılıqlı inamı gücləndirər. Bu humanitar yardımın və inkişafa dair fəaliyyətin nəticələrini əvvəlcədən qiymətləndirməyə kömək edir;
- Analiz müxtəlif səviyyələrdə – icmadan tutmuş regional, milli və hətda beynəlxalq səviyyələrə qədər aparıla bilər ki, bununla da müxtəlif səviyyələr arasındakı əlaqələrə qiymət vermək imkanı yaranır.

Cədvəl 8. Potensial və Zəifliyin təhlili cədvəli

| | **Zəiflik** | **Potensial** |
|---|---|---|
| **Fiziki və maddi**<br><br>Hansı istehsalat ehtiyatları, bacarıq və risklər mövcuddur? | | |
| **Sosial və təşkilati**<br><br>İnsanlar arasında hansı münasibətlər və təşkilatlanma mövcuddur? | | |
| **Motivlər və mövqelər**<br><br>İcma dəyişikliklərin əldə olunması üçün öz imkanlarını necə qiymətləndirir? | | |

Qender Təsnifatı

| | Zəiflik | | Potensial | |
|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| **Fiziki və ya maddi** | | | | |
| **Sosial və ya Təşkilati** | | | | |
| **Motivlər və ya Mövqelər** | | | | |

İqtisadi sinfə mənsubluq əlamətinə görə təsnifləşdirilmə

| | Zəiflik | | | Potensial | | |
|---|---|---|---|---|---|---|
| | Varlı | Orta | Kasıb | Varlı | Orta | Kasıb |
| **Fiziki və ya maddi** | | | | | | |
| **Sosial və ya Təşkilati** | | | | | | |
| **Motivlər və ya Mövqelər** | | | | | | |

**Güclü və zəif cəhətlərin, imkanların və təhlükənin analizi.**

Bu analizin məqsədləri aşağıdakılardır:

- Qender fəaliyyətini həyata keçirərkən iştirakçıların üzləşdiyi güclü və zəif cəhətləri, imkanları və təhlükələri müəyyən etmək;

- Qender işində stratengiyanın müəyyənləşdirilməsinə hazırlıq görmək.

Hazırki analiz sizin təşkilatın və ya qrupun xarici mühitdən gələn imkan və təhlükələrə münasibətdə daxilindəki güclü və zəif cəhətlərini öyrənən adamlara kömək məqsədilə işlənmişdir. Bu analizdə əsas məsələlər aşağıdakılardır:

- Biz hansı əsas xarici imkanlara malikik?
- Biz hansı əsas xarici təhlükələrlə üzləşirik?
- Bizim əsas daxili güclü cəhətlərimiz hansılardır?
- Bizim əsas daxili zəif cəhətlərimiz hansılardır?

Hazırki analiz strateji planlaşdırmanın bir hissəsi, daxili və xarici mühit arasındakı münasitbətlərin yoxlanılmasında vacib komponentlərdən biridir. O, gərək təşkilatlara və qruplara strateji məsələlərin müəyyən edilməsi və strategiyanın inkişaf etdirilməsi üçün əsas təqdim etmiş olsun.

**Güclü və zəif məqamların, imkan və təhlükələrin təhlili cədvəli**

| Güclü məqamlar | **Zəif məqamlar** |
|---|---|
| | |
| İmkanlar | **Təhlükələr** |
| | |

Cədvəl: fəaliyyət və hadisələrin xronologiyası

Bu cədvəl – tərəqqi tendensiyalarının nümayiş üsulu olub, son hadisələrin və hərəkətlərin yaranmış şəraitə təsrini və təkrar olunan mövzuları göstərmək üçündür.

Xronologiya keçmişin müəyyən dövrünə qayıtmaq və əhəmiyyət kəsb edən hadisə və hərəkətləri qeyd etmək yolu ilə düzülür. Bu eyni yerdə və müəyyən olunmuş vaxtda adamlarla aşağıdakı məsələləri müzakirə eitmək imkanı verir:

- Real olaraq nə və necə baş vermişdir;
- Şəraitə hansı faktorlar təsir etmişdir;
- Əsas tendensiyaları öyrənmək olarmı və onlar nədən ibarətdir;
- Bu tendensiyalardan hansıları gələcəkdə özünü biruzə verə bilər.

Yaxşısı odur ki, xronoloji cədvəli tərtib edənlər hadisələrə və hərəkətlərə bilavasitə aidiyyatı olan adamlar qrupu, həm də əsas sualları verə bilən şəxslər olsunlar.

| **Tarix** | | | | | |
|---|---|---|---|---|---|
| **Əhəmiyyətli hadisələr** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| (Bunlar **kənarda baş vermiş,** məsələn, hökumətin hərəkətləri, hüquqi aktlar, təbii fəlakətlər, konfranslar, və ya **daxildə baş vermiş,** məsələn yeni heyət, seminarlar və s., ola bilər) | | | | | |
| **Sizin heyətin məsuliyyəti** | | | | | |
| **Sizin məsuliyyətinizin qender elementi** | | | | | |
| **Sizin məsuliyyətinizə təsir edən daxili faktorlar** | | | | | |
| **Sizin məsuliyyətinizə təsir edən kənar faktorlar** | | | | | |

**Qender və mədəniyyət**: bu fəsil xüsusi əhəmiyyət kəsb edir. Din – dünyanın bir çox hissələrində mədəniyyətin fundamental özəyini təşkil edir, eyni zamanda o, qadınlara və kişilərə aidiyyatda ən möhkəm etiqadların cəmləşdiyi sahədir.

Çox hallarda adamların bu və ya digər problemə münasibəti onların ətraf həqiqəti konkret məsələnin nəzəri əsaslarına görə deyil, özlərinin şəxsi qavrayışına uyğun olan yanlış təsəvvürlərin üzərində qururlar. Məhz bu müasir dünyanın müxtəlif problemlərinə səhv yanaşmanın səbəbidir. Bu cür səthi düşüncə yaranmış neqativ vəziyyətdən çıxış yolu tapmaq mövqeyini zəiflədir. Bütün yuxarıda deyilənləri çox hallarda qadının din, o cümlədən islam baxımından mövqeyi məsələsinə aid etmək olar. Bu sahədəki mülahizələr əksəriyyət olaraq həqiqi islam postulatları üzərində deyil müsəlman əhalisinin üstünlük təşkil etdiyi bir çox ölkələrdə formalaşmış həyat təcrübəsindən irəli gəlir ki, bunun da çox vaxt həqiqi islamla və şəriətlə heç bir əlaqəsi olmur.

Misal qaydasında burada alman müəllifi Murad Vilfrid Xofmanın **«Alman – müsəlmanın gündəliyindən»** kitabından misal gətirmək olar:

*«Adətən müsəlmanların bir çoxu belə hesab edirlər ki, islamda qadınların məscidə girməsinə və həccdə iştirak etməsinə icazə verilmir. Bu azmış kimi, bəzən elə adama rast gəlmək olur ki, o, müsəlman qadınlarında həyat enerjisinin və aktivliyin çatışmadığı haqqda cəfəng nağıllara inanır.*

*İnsan nə qədər də həqiqətdən uzaq ola bilərmiş!?*

*Və nə qədər qəribə olsa da, onların şəksiz yanlışlığı çoxdan inandırıcı surətdə sübut olunmasına baxmayaraq bu uydurmalar yaşamaqda davam edir.*

*İslamda qadın nəinki aktivdir, o, eyni zamanda dini planda kişilərlə bərabər hüquqludur…*

*Müsəlman qadınlar şəriət qaydalarına görə 1400 ildən artıq müddətdə elə hüquqlara malik idilər ki, onların avropalı bacıları bu hüquqları iyirminci əsrdə güclə qazana biliblər.*

*Məsələn, izdivacı götürsək, müsəlman qanunlarına görə, o, qadının əmlak hüquqları üçün heç bir mənfi nəticə verə bilməz. Belə ki, məhz qadın və yalnız o, ərə gedənə qədər ona məxsus olmuş əmlakla istədiyi kimi rəftar etmək hüququna malikdir. Müasir Avropanın nailiyyət saydığı ər və arvadın ayrıldıqda əmlaka sahib olmaları (arvadın öz əmlakını kişinin himayəsinə verməsi yox) – əslində islam şəriətində çoxdan*

*öz yerini almış, adi bir qaydanın təkrarından başqa bir şey deyildir. Doğrudur ki, qadın cinsindən olanlara nisbətən kişi cinsindən olan uşaqlara varislik mirasının daha çox hissəsi düşür, lakin o da doğrudur ki, yalnız kişilər öz ailəsini tam tərkibdə saxlamağa borcludur. Əgər müsəlman qadın öz südəmər körpəsini əmizdirmək istəmirsə, o, kişisini dayə tutmağa sövq edə bilər. Uşaqların tərbiyələndirilməsində son söz ona məxsusdur.*

*Müsəlman qadın boşanmaq haqqında məsələ qaldırmaq hüququna malikdir. Prinsip etibarilə o, istənilən adi peşələrdən biri ilə məşğul olmaq hüququndan məhrum deyildir.*

*… Bir çox digər məsələlər də vardır ki, onları islama uyğun olaraq qadın hüquqları ilə bağlılıqda müzakirə etmək mümkün olsun, lakin mən belə hesab edirəm ki, «qadın azadlığı uğrunda» geniş miqyaslı hücuma başlamazdan qabaq potensial tənqidçilər heç olmazsa yuxarıda gətirilən faktları dərk etsinlər.»*

Gətirilən misal göstərir ki, qadınlarla və icmalarla işi təşkil etdikdə dini normaların ümumən inkar edilməsi prisipini rəhbər tutmağa heç bir əsas yoxdur. Daha asanı odur ki, təlim dinin həqiqi əsasları üzərində qurulsun və ondan insanların əsrlər boyu öz maraqları, o cümlədən qender maraqları üçün istifadə etmələri nəticəsində yığılıb qalmış lazımsız laylar təmizlənsin. Beləliklə, bütün əyintilər və yanlış yanaşmalardan, səhv baxış və adətlərdən azad olaraq biz tam başqa şəraitdə qadınların tamamilə yeni vəziyyəti ilə rastlaşırıq.

<u>Baxılmaq və müzakirə etmək üçün təklif olunan suallar:</u>

| | | |
|---|---|---|
| 1. | Qender və münaqişə | |
| | Münaqişənin təsiri | 2-2,5 saat |
| | Misallardakı nəticələr | 1 saat |
| | Güclü və zəif cəhətlərin öyrənilməsi | 1,5-2 saat |
| | Zaman çərçivələri | 1 saat |
| | Müzakirələr | 1 saat |
| 2. | Qender və ətraf mühit | |
| | Qender və ətraf mühit | 1-1,5 saat |
| | Cari məsələlər | 45-90 dəqiqə |
| | Yaşayış vasitələrin əldə olunması | 1 saat |
| 3. | Qender və iqtisadi tənəzzül | |
| | Struktur nizamlama | 1-1,5 saat |
| | Borclar çəmbəri | 1 saat 20 dəqiqə |
| 4. | Qender və mədəniyyət | |
| | Xəbərdarlıq | 1 saat |
| | Tarixin yaradılması | 1,5 saat |
| | Bizim yaratdığımız zəncir | 1,5 saat |

## QADINLARLA VƏ KİŞİLƏRLƏ İŞ

Bu fəsil öz təşkilatlarında və ya qeyrilərində qender məsələləri üzrə qadınlarla və kişilərlə işləyən iştirakçılara yardım məqsədilə hazırlanmışdır. Əvvəlki bölmələrdə təqdim olunmüş analitik strukturlar inkişafın mahiyyətini dəyişmək və ya humanitar yardıma təsir göstərmə məsələlərinin vacibliyini üzə çıxzara bilərlər.

### 1. Dinləmə

Hərəkətlərin birinci qrupu dinləmə və məlumat toplama üzərində cəmləşir. Hansı sualların veriləcəyini bilmək kifayət deyildir. Daha vacibi – necə dinləməyi, xüsusən də qadınları necə dinləməyi bilməkdir. Adamların həqiqətən nə dediklərini dinləmək və eşitmək – onlardan nəyi eşitmək istədiyinizdən yaxşıdır, çünki bu təcrübə

və şüur tələb edən bacarıqdır. Çox hallarda qadınlar öz real tələbatları və maraqları haqqında danışmaq və ya özləri barədə məlumat vermək istədikdə, onlara bir sıra siyasi və mədəni xarakterili faktorlar məhdudedici təsir göstərir. Qender aspektləri üzrə praktikada işləmək – qadınlar və kitşilər haqqında məlumatı necə dinləmək və əldə etmək deməkdir.

**2. Kişilərlə və qadınlarla iş**

Bu qrup hərəkətlər qadınları dinləməkdə və onlarla danışmadıqda meydana çıxan bəzi təhlükələri araşdırır. Məsələn, qadınların aktiv iştirak prosesindən kənarda qoyulması, partnyor agentliklərin qender probleminə biganəlik göstərməsi bu təhlükələrdədir.

## Yaxşı və pis dinləmə

Yaxşı dinləmə üsullarına aşağıdakıları aid etmək olar:

1-ci Dinləmə üsulu – «Diqqətin cəmlənməsi və yayılması», burada dinləyici vaxtaşırı «diqqətini yayındırır»;

2-ci Dinləmə üsulu – «Qırmızı bayraq», burada bir neçə müəyyən söz bizə dinləməni dayandırmağı məcbur edən əsas olur;

3-cü Dinləmə üsulu – «Açıq qulaqlar, qapalı şüur», burada biz nəyi bilir, nə barədə danışılacağı haqda dərhal qərara gəlirik;

4-cü Dinləmə üsulu – «Donmuş gözlər», burada biz özümüzü elə göstəririk ki, qulaq asırıq, əslində isə öz bildiyimiz barəsində düşünürük;

5-ci Dinləmə üsulu – «Bu mənim ağlımdan kənardır», burada biz heç qulaq asmırıq, çünki başa düşmürük;

6-cı Dinləmə üsulu – «Döngələrdə ehtiyatlı ol!», burada bizim fikrimizi dağıda bilən heç nəyə qulaq asmırıq.

Bu üsullar eyni zamanda kimin qulaq asıb-asmadığını təyin etməyə kömək edir. Dinləmə prosesində biz aşağıdakını etməyə c**əhd göstərməliyik:**

- Maraq göstərmək;
- Başqa adamlar üçün anlaşılan olmaq;
- Simpatiya nümayiş etdirmək;
- Əgər varsa, problemi ayırmaq;
- Problemin məğzini dinləmək;
- Danışana problemi onun məğzi ilə uyğunlaşdırmada kömək etmək;
- Danışanı (qadın ya kişi) öz problemlərinin həllini və əsaslandırılmasını inkişaf etdirməyə həvəsləndirmək;
- Lazım gəldikdə susmaq bacarığını saxlamağı aşılamaq.

Dinləmə prosesində bunları **etmək olmaz:**

- Mübahisə etmək;
- Sözü kəsmək;
- Tez-tələsik və qabaqcadan fikir söyləmək;
- Başqaları xahiş etmirsə, məsləhət verməmək;
- Qərar və nəticələr üzərində çaparaq gəzmək;
- Danışanın emosiyalarının birbaşa sizin reaksiyanıza səbəb olmasına imkan vermək.

## Qender tədqiqatları üzrə əməkdaşlıqda layihə partnyorları ilə iş üçün ideyalar

Partnyorlarla iş zamanı qender problemlərinə toxunmaq partnyorluğu həm gücləndirə, həm də zəiflədə bilər. Problem partnyorluğu möhkəmləndirirsə,

uzunmüddətli dialoq strategiyasının bir hissəsi olar, əgər zəiflədirsə, bu istifadə edildikdə imperializm və mədəni qəbul etməmə təzahürü kimi özünü göstərər.

Layihə partnyorları ilə iş üçün uzunmüddətli strategiya aşağıdakı kimi xarakterizə olunmalıdır:

- açıq dialoq;
- partnyorların tənqidi suallarını dinləmək bacarığı;
- işdə tərəflərin metodlarının şəffaflığı;
- təhsilin qarşılıqlı proses olduğunu qəbul etmək;
- vaxt;
- resurslar;
- nəyi harada, kimlə və necə başlamağın üstünlüyünü dəqiq müəyyən etmək.

Aşağıdakılar qender üzrə iş strategiyasının mümkün komponentlərinin siyahısını təşkil edir:

1. Yerli təşkilatların və elmi-istehsalat birliklərinin (EİB) resurslarından istifadə etməklə və EİB heyətini və layihə partnyorlarını cəlb etməklə birgə təlimlərin keçirilməsi;
2. Qadın təşkilatları və hərəkatları ilə əlaqələrin vacibliyinin başa düşülməsi və möhkəmləndirilməsi, belə ki, onlar daxili baxışla qadınların ölkədə və ya regionda vəziyyəti haqqında məlumat əldə etməyimizə, ölkə ya regiona dair bizim baxış və əldə edəjəyimiz nəticələrin inkişaf etdirməyimizə kömək edər.
3. Ölkədə bilavasitə qender problemləri üzərində çalışanları ümumi inkişaf problemləri üzərində işləyənlər arasında informasiya mübadiləsi şəbəkəsi yaratmaq üçün ardıcıl siyasətin işlənməsi, gücləndirilməsi və inkişaf etdirilməsi.
4. Elə tədqiqatların aparılması ki, onlar qadınların və kişilərin müxtəlif şəraitdə vəziyyətini, yerli və regional tədqiqatçıların bu məsələlərin həllinə cəlb olunmasının üstünlüyünü və bu tədqiqatların nəticələrinin çapına və yayılmasına lazımi resursların investisiyasını sənədli şəkildə əks etdirə və sintez edə bilsin.
5. Yerli qadın – məsləhətçilərin, təlim rəhbərlərinin və ekspertlərin təşkilat və EİB tərkibində planlaşdırma prosesinə cəlb olunması, bununla da onların potensialının gücləndirilməsi və qender baxımından mədəni perspektivlərin möhkəmləndirilməsində iştirakının təmin edilməsi.
6. Texnokratlar komandası ilə ya onun tərkibində işləmək üçün qender heyəti tərkibindən olan mütəxəssislərin təliminə kömək etmək yolu ilə texniki məsələlərə qender inteqrasiyasının prioritetlərinin təmin olunması.
7. İnkişaf üzrə agentliklərin yığıncaq və seminarlardan partnyor qrupların dəvət olunması.
8. Qender məsələləri ilə məşğul olan partnyorlara inkişaf üzrə agentliklərin strategiyasının və uzunmüddətli planlaşdırmasının işlənməsinə öz tövhələrini vermək imkanı yaradılması.
9. Humanitar agentliklərin işçi heyətinin «məşqçilər üçün təlim mütəxəssisləri kimi» bacarıqlarını artırmağa həvəsləndirilməsi; partnyorların öz işləri çərçivəsində qenderi araşdırmaq qabiliyyətlərinin gücləndirilməsi; qoyulan məqsədlərin vaxt, təlim və texniki vasitələr kimi resurslarla təmin olunması.
10. Elə mexanizmlərin öyrənilməsi ki, onların vasitəsilə hazırki partnyorlarınızla dialoq yaratmaq mümkün olsun və bizim qender sahəsindəki təcrübəmiz konkret olaraq birgə layihənin hazırlanma və reallaşdırma prosesində əksini tapmış olsun.
11. Regional və ya regionlararası partnyor əlaqələrinin və şəbəkələrinin inkişafının təqdir olunması.
12. Tədqiqatlar və praktiki iş vasitəsilə qender konsepsiyasının işlənib hazırlanması məqsədlərinin, onun işlədiyimiz cəmiyyətdə necə qəbul edildiyinin müəyyən edilməsi.

Baxılmaq və müzakirə etmək üçün təklif olunan suallar

1. Dinləmə bacarığı

| | |
|---|---|
| Başa düşülməmək | 40 dəqiqə |
| Dinləmə qabiliyyəti | 35 dəqiqə |
| Qadını dinləmə | 2 saat |
| Siz bilirsinizmi ki, o (qadın) sizdən çox bilir? | 1,5 saat |

2. Kişilər və qadınlarla iş

| | |
|---|---|
| Qadınların cəlb olunması işi | 3-4 saat |
| Kişilərlə və qadınlarla iş | 1,5 saat |
| Partnyorlarla iş | 2 saat |
| Qadınlar haqqında kəşflər | 1 saat |
| Pozitiv hərəkətlər | 1,5-2 saat |